**UOT 322**

# 20 YANVAR FACİƏSİ - AZADLIQ MÜBARİZƏSİNİN MÜSTƏQİLLİYƏ GEDƏN YOLU

**Günel MƏLİKLİ***

**Açar sözlər:** *20 Yanvar faciəsi, Qarabağ problemi, Xocalı qətliamı, ərazi toxunulmazlığı*


## *XÜLASƏ*

Azərbaycan xalqının müstəqil inkişaf yolunu seçməsi müqabilində SSRİ rəhbərliyi imperiyanın gücünü göstərmək, onun imkanlarını nümayiş etdirmək qərarına gəldi. 1990-cı il yanvarın 20-də gecə xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakının zəbt olunması təmin edildi. Bu qanlı aksiya nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Coğrafi-ərazi baxımından birinci hadisə mərkəzdə, ikincisi Qarabağda baş vermişdi. Məqsəd isə eyni idi: Azərbaycan xalqının inamını, iradəsini qırmaq, milli mənliyini alçaltmaq, sovet hərb maşınının gücünü nümayiş etdirmək. Azərbaycan Respublikası müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi, əbədiyaşar olması istiqamətində qətiyyətlə, əzmkarlıqla irəliləyərək XX əsrin sonlarında yenidən öz müqəddəs amalına – müstəqilliyə qovuşdu, onu qoruyub möhkəmləndirməyi bacardı, bütün dünyada nüfuzunu artıraraq qüdrətli söz və əməl sahibi olduğunu sübut etdi.


**Giriş**

1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların tarixi torpaqlarından növbəti kütləvi deportasiyası, Qarabağın Ermənistana birləşdirilməsi cəhdləri ilə 1987-ci ildən başlayıb. Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən öz ərizəsi ilə istefa verməsindən cəmi 3 ay sonra, 1988-ci ilin fevralında isə Azərbaycana qarşı Ermənistanın torpaq iddiası baş qaldırdı və Qarabağda münaqişə ocağı yaradıldı.

Azərbaycan xalqının müstəqil inkişaf yolunu seçməsi müqabilində SSRİ rəhbərliyi imperiyanın gücünü göstərmək, onun imkanlarını nümayiş etdirmək qərarına gəldi. 1990-cı il yanvarın20-də gecə xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakının zəbt olunması təmin edildi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ müdafiə naziri D.Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdıb əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq şəhərə daxil oldular.

Azərbaycan xalqının müstəqil inkişaf yolunu seçməsi müqabilində SSRİ rəhbərliyi imperiyanın gücünü göstərmək qərarına gəlmişdi. 20 Yanvar hadisələri Bakıda – mərkəzdə baş vermişdi. Görəsən respublikanın digər yerlərində, xüsusən Qarabağda vəziyyət necə idi?

Yanvar ayında erməni terrorçuları tərəfindən Əsgəran-Ağdam yolunda körpü, Şuşa şəhərini su ilə təmin edən boru kəməri, Ağdam şəhərində avtovağzal binası partladılmışdı. Todan kəndinə silahlı hücum nəticəsində 4 nəfər, Xanlar rayonunun Şəfəq kəndində bir nəfər, Laçın rayonunun Hacılar kəndində bir nəfər öldürülmüşdür.

19 yanvartarixində Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul edir, lakin Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvanın Şada, Yuxarı Yaycı, Havuş, Günnüt və Batabat rayonuhucuma məruz qalır, Sədərək rayo-

*Elmlər doktoru hazırlığı üzrə dissertant, s.e.ü.f.d., AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu*
*E-mail: gunelmelikli88@gmail.com*

nunda 10 nəfər azərbaycanlı xüsusi qəddarlıqla öldürülür. Naxcıvan MSSR-in Kərki kəndi Ermənistan SSR-də yerləşən 7-ci sovet ordusunun hərbciləri tərəfindən işğal edilərək ermənilərə təhvil verildi.

Bakı və Gəncə şəhərlərində, digər yaşayış məntəqələrində ictimai-siyasi vəziyyət daha da ağırlaşır, hakimiyyətsizlik hökm sürən respublikaya Ermənistan SSR tərəfdən silahlı hücum güclənir. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fovqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman versə də, fövqəladə vəziyyət rejiminin qüvvəyə mindiyi vaxt xalqa bildirilmədi. Axşam saatlarında ölkənin yeganə televiziyasının enerji bloku partladıldığından hücum barədə ictimaiyyətə məlumat çatdırılmadı. Təcavüzkarlıq aksiyasınəticəsində Azərbaycan Respublikasının suveren hüquqları tapdalanmış, xüsusi qəddarlıqla, misli görünməmiş vəhşiliklərlə Bakı zəbt edilmiş, dinc əhaliyə divan tutulmuşdu. Məqsəd Azərbaycan xalqının demokratiya uğrunda mübarizəsini boğmaq idi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilmiş, gözyaşardıcı qaz tətbiq olunaraq, hərbi texnika piketçilərin qurduğu maneələri əzib kecir, yaralıları süngüləyir,dinc sakinlərlə dolu avtobuslar gülləbaran edilir, əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi öldürülmüşdü. Şəhərə beş istiqamətdən ordu yeridilmişdi. Tanklar birinciSalyan kazarması tərəfdən hücuma keçir, sonra köhnə avtovağzal, "20 Yanvar" meydanı, keçmiş "Kimyaçılar Evi"-nin yanı ilə metronun Elmlər Akademiyası metrostansiyasının qarşısına keçmişlər. QoşunlarBiləcəri yolunda qurulan barrikadanı uçuraraq, Bakıya daxil olur. İnsanların çoxu metroya tərəf qaçırdı ki, keçidə girsin, lakin tanklar buna imkan vermir, insanlar projektorlar vasitəsilə tapılıb güllələnirdilər. Bu qanlı terror nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu sözün həqiqi mənasında "ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş" qanlı cinayət idi. [14,s.72]

Yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi. Azərbaycanlıların yaşadıqları 154 yaşayış məntəqəsi aramsız basqınlara məruz qalmışdı.

***Kəşfiyyat polkovniki Q.B.Smirnov*** baş verən qanlı Bakı hadisələrini araşdırarkən göstərir ki, ermənilər hücumdan əvvəl Azərbaycanla bağlı çox güclü və hərtərəfli təhlil olunmuş, dəqiq və təkzib olunmayan strateji kəşfiyyat məlumatlarına malik olublar.O, haqlı olaraq belə bir sualı ortaya qoyur: "Kim idi bütün bunların arxasında dayanan? Təəssüflər olsun ki, Azərbaycan tərəfi bütün bu məsələlərin kökünə getməkdə, dünyaya, bəşəriyyətə hər şeyi olduğu kimi tanıtmaqda o vaxt nədənsə acizlik göstərdi.

***«ASALA» silahlı erməni ordusu Bakıya soxularaq dinc insanları qırmışdı.* «...Mən həmişə baş verən terror hadisələrini araşdırmışam. Əgər təcrübəli kəşfiyyat generalı, ölkənin ictimai-siyasi durumuna ciddi bələd olan Heydər Əliyev öz möhtəşəm və dünyanı sarsıdan çıxışında cəmi yarım saat geciksəydi... onun və onun ətrafında olanların həyatını xilas etmək mümkün olmayacaqdı...*"**[27, S.96]

1990-cı il yanvarın 20-də Heydər Əliyevin çekist dostları general V.A.Şebarşinin və V.A.Kirpiçenkonun təkidilə yaradılmış «Antiterror» qrupunun üzvləri Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyindən 12 kq partlayıcı maddə götürərək, ətraf binalarda qərar tutan 16 nəfər erməni terrorçusunu həbs etdilər. Məhz bundan sonra Heydər Əliyevin sərbəst çıxışına təminat verildi... Bu ermənilərin qanlı cinayətlərini ifşa edən ən güclü siyasi-hüquqi sənəd idi. Məlumata görə, həmin gün Heydər Əliyev və onun ətrafına zərər verə biləcək D.S.Mirzoyan (hərbi kəşfiyyat mayoru), L.M.Bazuyan (istefada olan hərbçi), Q.M.Emilyan (tarixçi), F.M.Qalustyan («ASALA»), E.D.Melikyants («DRO»), M.D.Şanx (Cənubi Afrika vətəndaşı), R.B.Sarkisyan (Yerevanda yaradılmış «Krunk» təşkilatı), H.S.Samvel (bərpa olunmuş «Erməni Bürosu»nun üzvü) və başqa erməni terrorçuları həbs olundular. [26]

**Bakı qırğınları Moskvanın ən nüfuzlu hökümət və dövlət strukturlarında müzakirə mövzusu idi. Digər bir araşdırma materialında isə, «ASALA»nın lideri olan general Levon**

**Kazançiyan əlavə 23 döyüş aparan qrupu ilə Bakıda göründü... Məlumata görə, 1990-cı il yanvarın 22-də general Levon Kazançiyan Moskvadan, kəşfiyyat generalı Leonid Şebarşindən çox ciddi və təsirli bir teleqram alır. Əldə olunan digər bir məlumatda bildirilir ki, general V.A.Şebarşin general Levon Kazançiyanı «əbləh və vicdanını itirmiş erməni» adlandıraraq, təcili Bakını tərk etməyi tələb edir. Kəşfiyyat generalı V.A.Kirpiçenko isə Heydər Əliyevə etdiyi telefon zəngində vicdan əzabı çəkdiyini etiraf edir. V.A.Kirpiçenko 1990-cı il yanvarın 22-də Azərbaycan xalqına ünvanladığı məktubda bildirirdi: «...Baş verənlərə görə, bir rus zabiti kimi həmişə əzab çəkəcəyəm. Çünki mən bu xalqı, onun ədəbiyyatını, tarixini, adət-ənənəsini çox sevirəm. Azərbaycan xalqı tarixdə yeri olan bir xalqdır...».**Ümummilli lider Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, "20 Yanvar faciəsi totalitar kommunist rejimin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi".[14,s.72]

M.Qorbaçovla kəskin telefon danışığından sonra bütün gecəni yata bilməyən ümummilli lider Heydər Əliyev eşitdi ki, Moskvada Azərbaycanın daimi nümayəndəliyinin binası qarşısında adamlar yığışıb. Təxminən 4-5 min nəfər Heydər Əliyev o saat qərara aldı ki, oraya getsin. Onunla birlikdə övladları da daimi nümayəndəliyin binasına tərəf yollandılar. Xalqının fəlakətə düçar olduğu, təqib və təzyiqlərə məruz qaldığı bir dövrdəailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi numayəndəliyinə gəlib, 6 minə yaxın həmvətəninin iştirakı ilə təşkil olunmuş mitinqdə cıxış etməsi ilə,belə bir ağır məqamda Mən varam! Azərbaycan tək deyil! Ümummilli lider Heydər Əliyevtərəfindən əyani şəkildə sübut olundu. Tarixi hadisə və proseslərdə, xüsusən kəşməkeşli məqamlarda şəxsiyyət problemi çox önəmli məsələdir.Görkəmli şairimiz yaxşı deyibdir ki, "Mənəm, mənəm deyənlərin inanma çox da gövlünə". Dərin düşüncəli, güclü təhlil qabiliyyəti və zəngin həyat təcrübəsi olan, istedadlı şəxsiyyətlərə hər zaman ehtiyac var. Zaman və şəxsiyyət dialoqunda zamanın üstün olduğu, yaxud şəxsiyyətin önə keçdiyi məqamlar olur. Belə önəkeçmə o zaman davamlı olur ki, şəxsiyyət bütün keyfiyyətlərini və əməllərini doğma Vətəninə, xalqına həsr edir. Bəli, Heydər Əliyev zamanı qabaqlayan fədakar şəxsiyyət idi.Heydər Əliyevin bu tarixi mitinqdə çıxışı dünyada sensasiya doğurdu. Onun ittiham nitqi qan içində boğulan Qorbaçov "yenidənqurması" üçün rekviyem oldu. Həmin gün bütün xarici radiosəslər Əliyevdən sitatlar gətirirdi, daimi nümayəndəliyin qarşısına yığılmış xarici müxbirlər isə müsahibə almaq üçün Əliyevi mühasirəyə almışdılar. [18,s. 749]

Bu isə hadisələrin digər iştirakçısı Adilə xanım Abbasovanın danışdıqlarıdır: "... 1990-cı ilin 20 Yanvarında Bakıda baş verən faciədən xəbər tutan kimi biz dərhal Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına getməyi qərara aldıq. Yanvarın 21-də yəqin ki Moskvada yaşayan bütün azərbaycanlılar daimi nümayəndəliyin qarşısına gəlmişdilər. Çoxlu adam var idi! Elə həmin vaxt mən Mixail Qorbaçov tərəfindən sanksiyalaşdırılan insanlığa zidd aksiyaya qarşı hiddət və etirazını bildirmək üçün daimi nümayəndəliyə gələn Heydər Əliyevi ikinci dəfə gördüm. O, bizim qarşımızda çıxış etdi. Onun yaxınlığında durmuşdum. Kəskin danışırdı, ilk dəfə məhz bu mitinqdə söylədi ki, Mərkəz Azərbaycan xalqına qarşı əsil təcavüz etmişdir. O, heç kimdən və heç nədən çəkinməyərək danışırdı. "Xalq onu çox yaxşı, mehriban qarşıladı. Sonra o, binaya keçdi, biz isə onun cəsarətindən ürəklənib əvvəlcə SİTA-nın binası qarşısına, oradan isə mərkəzi televiziyaya gedib bəyanatı ötürmək və efirdən səslənməsini tələb etmək qərarına gəldik. Hava çox soyuq idi, haradasa 18-20 dərəcə şaxta olardı. Bax, o vaxt mən başa düşdüm ki, dərd insanları necə birləşdirir. Şaxtaya, yolların buz bağlamasına fikir verməyərək, insanlar əl-ələ tutub gedirdilər-bir-birini tanıyan və tanımayanlar da, qocalar və cavanlar da – hamı hakimiyyətə öz ağrı və hiddətini bildirmək üçün gedirdi. [18,s. 751]

Heydər Əliyevin iki il ərzində hadisələri ürəkağrısı ilə izlədiyi hər kəsi doğma liderinə heyrəti gücləndirir: "Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət ki-

fayət idi. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı”. [2]

Heydər Əliyev doğma xalqı ilə həmrəy olaraq, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirmişdi: “...Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və ... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm ... Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!”.

“İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir. Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı”.[2]

Həmin illərdə respublikanın başında duran şəxsin qatil ilə həmfikir olması, millətin varlığını silmək üçün öz içində özünüməhv proqramı işə salınması, millətin arxadan vurulması idi. Lider xalqınıntələbini, etirazını, baş verə biləcək təhlükənin səbəblərini əvvəlcədən dərk etməlidir ki, vəziyyət gərginləşməsin. Heydər Əliyev qeyd edirdi: “Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır.” “Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi”.“Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər”.[2]

Heydər Əliyev Azərbaycan KP MK, Respublikanın Ali Soveti və Nazirlər Sovetinə vurduğu teleqram vasitəsilə xalqa üzünü tutdu: “Azərbaycan xalqına! Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən — dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram. Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio, televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.”[2]

Los Angelesin “Times” qəzeti yazırdı: “Yanvarın 20-də və 21-də təşkil edilən yürüşlər, 22-də keçirilən kütləvi dəfn mərasimi hər cür mitinqləri qadağan edən fövqəladə vəziyyətə qarşı açıqdan-açığa meydan oxumaqdır. Şəhidlər xiyabanında keçirilən dəfn mərasimi “Moskva” mehmanxanasının yuxarı mərtəbələrində yerləşdirilmiş xüsusi nəzarətçilər və snayperlər tərəfindən diqqətlə izlənilirdi. Bütün sərt maneələrə və təhlükəli nəzarətə baxmayaraq, qeyrətli insanlar şəhidlərin xatirəsinə layiq dəfn mərasiminin keçirilməsinə nail oldular”.[22]

Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın “Azadlıq” meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirmişdi. 1990-cı il yanvarın 22-də xalqın tələbi və bir qrup

deputatın təşəbbüsü ilə Azərbaycan Ali Sovetinin 20 Yanvar hadisələri ilə bağlı sessiyası çağırılsa da, respublikanın əksər siyasi və dövlət rəhbərləri ora girməməsi öz millətinə qarşı törədilən cinayətdə iştirakının sübutu idi.

Xalqımıza qarşı törədilmiş cinayət əslində açılmamış qalmışdı. Bu azmış kimi Sovet hakimiyyəti dövründə 20 Yanvar hadisələri ilə bağlı olan, müxtəlif şəxslər tərəfindən toplanıb Dövlət İstintaq Komissiyasına konkret sənədlər, dəlil və sübutlar Azərbaycandan çıxarılıb aparılmışdı. Müvafiq orqanlar o zaman nəinki zəruri istintaq tədbirlərini həyata keçirdilər, hətta həmin hadisələrlə bağlı bir sıra məxfi sənədlər, o cümlədən əhəmiyyətli arxiv sənədləri bütövlüklə və ya qismən məhv edildi. Eyni zamanda 20 Yanvar hadisələri şüurlu surətdə müəyyən təhriflərlə, yanlış yozumlarla respublika əhalisinə çatdırılmışdı.1995-ci il Heydər Əliyev 20 yanvar mərasimində söyləmişdi: "Bu təcavüz Azərbaycan xalqına qarşı edilmişdi. Həlak olanlar Azərbaycanın milli azadlığı uğrunda qurban getmişdilər. Ancaq respublikanın rəhbərləri həmin dəfn mərasimində olmadılar. Bəziləri indi deyirlər ki, gəldilər, keçdilər, amma onlar matəm mərasiminin başında durmalı idilər, əvvəldən axıradək orada olmalı idilər. Əgər onlar xalqın rəhbərləri idilərsə, xalqa başçılıq edirdilərsə, gərək gəlib orada duraydılar. Bu da təsadüfi deyil, çünki yəqin mənəvi hüquqları yox imiş, onlarla xalq arasında böyük bir uçurum var idi".[13, s.68]

Bir məsələni də nəzərdən qaçırmaq olmaz. Azərbaycan Xalq Cəbhəsini təmsil edənlər hakimiyyətdə olduqları zaman 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdilər. Respublika rəhbərliyinin hətta şəhidlərin dəfn mərasimində də iştirak etməməsi, zənnimizcə təkcə öz vətəndaşlarına laqeyd-biganə münasibət məsələsi deyildi, həm də mənəviyyat məsələsi idi. Ən ciddi şəkildə narahatlıq doğuran məqamlardan biri ondan ibarətdir ki, baş vermiş faciə siyasi-hüquqi müstəvidə nəinki yetərincə araşdırılmadı, hətta onun mahiyyəti hər vasitə ilə gizlədildi. Heydər Əliyev çıxışında qeyd edirdi: "Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır".[2]"Yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqında bir təlatüm, coşqunluq, həyəcan əmələ gətirdi, elə bil vulkan püskürdü. İnsanların qəlbində güclü hissiyyat oyandı. Məhz bunlara görə yanvarın 22-də Azərbaycan Respublikasının o vaxtkı rəhbərlərinin iradəsinə zidd olaraq ölkəmizin qeyrətli adamları, deputatları, ziyalıları Azərbaycan Ali Sovetinin fövqəladə sessiyasını topladılar. Ağır şəraitdə, böyük təzyiqlər, qorxu altında, böyük təhlükə qarşısında bu məsələ müzakirə olundu. Mən hesab edirəm ki, həmin gecə, elə bir ağır şəraitdə layiqli qərar qəbul edildi. Bu gün xüsusi qeyd etmək lazımdır ki, həmin sessiyanın da aparıcı qüvvəsi bizim ziyalılar, Vətənə, torpağa bağlı adamlarımız idi. ...Ağır, çox ziddiyyətli bir şəraitdə – sovet ordusunun Azərbaycandakı hökmranlığı şəraitində, Sovet İttifaqı Kommunist Partiyasının Azərbaycana təzyiq göstərdiyi bir vaxtda gecə belə qərar qəbul olundu. Bu, doğrudan da yüksək qiymətə layiqdir. Ancaq bundan sonra nə oldu? ... Günahkarlar kənarda qaldılar, öz şəxsi məqsədləri, mənafeləri üçün, xalqın tarixi faciəsini ört-basdır etməyə çalışdılar". [13, s.67]

"The Times" qəzeti, 29 yanvar 1990-cı il: yanvarın 24-dən 25-nə keçən gecə Azərbaycan KP MK-nın təşkilati məsələyə həsr olunmuş plenumu keçirilir, Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqinin səbəblərini təhqiq etmək üçün komissiya yaradılır və respublika kommunistlərinin ali orqanı faciəyə yenə də siyasi qiymət vermir. Bakının işğalından sonra öz torpağına bütün varlığı ilə bağlı olan hər bir azərbaycanlının qəlbində Moskvaya və Mixail Qorbaçova qarşı dəhşətli bir nifrət hissi yaranmışdı. Vaxtilə rus imperiyasının müstəmləkəsi olan Azərbaycan indi öz suveren və demokratik hüquqlarını bərpa edir. Azərbaycandakı hərbi əməliyyatdan 10 gün sonra Sovet rəhbərliyi arasında ciddi ixtilafın olduğu üzə çıxdı, bu isə Sovet quruluşunun təməl sütunlarının silkələnməsi deməkdir. The Guardian qəzeti, 22 yanvar 1990-cı il: Bu dəhşətli hərbi əməliyyatı 70 illik imperiya əsarətindən qurtulmaq üçün ayağa qalxmış Azərbaycan xalqının coşqun mübarizə əzminin imperiyanın qəlbində yaratdığı qorxu xofunun nəticəsi kimi də izah etmək olar. Ordunun şəhərə hücumu zamanı günahsız insanların vəhşicəsinə güllələnməsi, tankların adamları öz tırtılları altında əzib keçməsi, qışın soyuq, şaxtalı gecəsində tonqallar ətrafında qızınan dinc azərbaycanlıların üzərinə hücuma keçərək cəsədlərini tanınmaz hala salması bütün dünya ictimaiyyəti tərəfindən nifrət və qəzəblə qarşılanıb pislənməlidir.[21]

Yanvar faciəsini təhqiq etmək ucun 21 nəfərdən ibarət deputat istintaq komissiyası yaradılır, ittifaq rəhbərlərinin cinayətkar movqeyi vurğulansa da, respublika rəhbərlərinin cinayət tərkibli əməli müzakirəyə qoyulmadı.Deməli, xalqa qarşı törədilmiş cinayət əslində açılmamış qalmışdı. Bu azmış kimi Sovet hakimiyyəti dövründə 20 Yanvar hadisələri ilə bağlı olan, müxtəlif şəxslər tərəfindən toplanıb Dövlət İstintaq Komissiyasına konkret sənədlər, dəlil və sübutlar Azərbaycandan çıxarılıb aparılmışdı. Müvafiq orqanlar o zaman nəinki zəruri istintaq tədbirlərini həyata keçirmişlər, hətta həmin hadisələrlə bağlı bir sıra məxfi sənədlər, o cümlədən əhəmiyyətli arxiv sənədləri bütövlüklə və ya qismən məhv edilmişdir. Belə bir məqama da diqqət yetirilməlidir ki, bir çox hallarda 20 Yanvar hadisələri şüurlu surətdə müəyyən təhriflərlə, yalnış yozumlarla respublika əhalisinə çatdırılmışdır.

1990-cı ilin 20 yanvar hadisələrindən sonra Dövlət Plan Komitəsinin keçmiş sədri A.Mütəllibovun ölkəyə rəhbərlik etməsi Azərbaycan cəmiyyətinin siyasi və iqtisadi dəyişikliklərə olan immunitetini tamamilə məhv etdi. Məlum olduğu kimi Ayaz Mütəllibov hakimiyyətə gələndən sonra SSRİ məkanında yeni tarixi dəyişikliklərin başlandığını dərhal dərk etməmişdi. O, Qarabağın Azərbaycandan ayrılması ilə bağlı hadisələrin arxasında Sovet İttifaqının dağılmasının başlandığını görə bilmirdi. Heç də təsadüfü deyil ki, o, QKÇP – Dövlət Fövqəladə VəziyyətKomitəsi iştirakçılarının qiyamını əvvəlcə dəstəkləmişdi. Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi kreslosundan Azərbaycan prezidenti kürsüsünə əyləşəndə isə erməni separatçılarının cilovlanmasına, habelə ölkənin həyatında nəzərəçarpacaq dəyişikliklər edilməsinə yönəlmiş qətiyyətli tədbirlər görmədi. [24, s.68,69]

1990-cı il iyulun 20-də ümummilli lider Heydər Əliyev Azərbaycan millətinə arxa durmaq üçün Azərbaycan SSR-ə qayıdarkən, hava limanından şəhərə doğru yolun kənarındakı ağacların boy atdığını gördükdə cox sevinir və minlərlə insanın hər birini öz doğma övladı hesab edirdi. Xalq heç bir təzyiqdən çəkinməyərək şəhəri, dənizkənarı parkı seyrə çıxan başına toplaşaraq ona olan sevgisini göstərdi. [16, s. 48]

Heydər Əliyev Azərbaycana qayıdanda ölkə çox ağır bir durumda idi. Sonralar o günləri cənab Prezident belə xatırlayır: “Eşidəndə ki, mənim doğma vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, biz burada nələr etmişik və bu dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm”. [27]

Seçkilərin elə ilk turunda o, həm Azərbaycan SSR-in, həm də Naxçıvan Muxtar Respublikasının xalq deputatı mandatını qazanır. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin mart sessiyasında öz tarixi çıxışları ilə respublikanın tam müstəqil yaşamaq imkanlarını açıqlamışdı. Azərbaycanın tarixində ilk dəfə olaraq məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti bu qanlı hadisələrə qiymət verir. [**1,** s.62]

Ulu öndər Heydər Əliyev “1990-cı ilin yanvar ayında törədilən Bakı hadisələrinə qiymət verilməsi haqqında” qərar layihəsini hazırlayaraq 1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisinin müzakirəsinə təqdim etdi. Naxçıvan MR Ali Məclisi tərəfindən qəbul edilən qərarda 20 Yanvar hadisələrinə siyasi qiymət verilir, kütləvi qırğın təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Həmin qərarda 20 Yanvarın hər il Naxçıvan MR-da matəm günü kimi qeyd olunması məsələsi də öz əksini tapmışdı.[25]

Noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyev Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirir: “Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində — heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vax-

tından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir". **1991-ci il fevralın 5-də** Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə Azərbaycan SSR – Azərbaycan Respublikası adlandı və AXC-nin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq edilir.

1991-ci ilin aprelində Goranboy, Xanlar, Hadrut rayonlarında Kremlin razılığı əsasında hərbi əməliyyatlar həyata keçirildi. 1991-ci il iyulun 19-da qeydiyyatda olduğu SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciət edərək, Kommunist partiyasını tərk edən Umummilli lider Heydər Əliyevin qətiyyətli addımı azadlıq uğrunda mubarizəyə stimul verdi. Azərbaycan Respublikası Ali Sovetinin avqustun 27-də xalqın tələbi ilə çağırılan novbədənkənar sessiyası avqustun 30-da Azərbaycan Respublikasının dovlət mustəqilliyi haqqında Bəyannamə qəbul etdi. Heydər Əliyev sessiyada çıxış edərək qiyamçıları ittiham etmişdi. 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ Respublikası" adlanan oyuncaq qurumun yaradıldığını elan etmişdilər. Azərbaycan Respublikası həmin qurumu tanımaqdan imtina etmişdi. Dekabrın 8-də Brestdə ≪Viskuli≫ iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərlərinin Mustəqil Dovlətlər Birliyinin yaradılması haqqında imzaladıqları sazişlə SSRİ-nin suqutu başa catdırıldı. SSRİ-nin suqutundan sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı açıq və ədalətsiz müharibəyə başladı.[6]

Heydər Əliyevin Azərbaycan Ali Sovetinə deputat seçilməsi, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olması, Ali Sovetin sessiyalarında fəal iştirak etməsi Azərbaycanı bu hala gətirən qüvvələrin onun həyatı üçün təhlükələr yaradırdılar.

Ümummilli Lider Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir.Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisinin 17 noyabr 1991-ci il tarixli sessiyası Sovet dövlətinin dağılmasının birinci parolu idi. Heydər Əliyevin muxtar respublika Ali Məclisinin 1991-ci il 4 sentyabr tarixli qərarında uzaq görənliklə bəyan etdiyi Kommunist partiyasının ləğvi tələbi gercəkliyə çevrildi. Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin 3 sentyabr 1991-ci il tarixli fövqəladə sessiyasında Ali Məclisin Sədri vəzifəsinə namizədliyi irəli sürüldükdə etdiyi çıxışı: "Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda, Naxçıvanın gələcək inkişafı yolunda canımı qurban verməyə hazıram. Ancaq mən vəzifə tutmaq istəmirəm. Xahiş edirəm, bunu düzgün başa düşəsiniz. Mənim üzərimə başqa nə vəzifə, tapşırıq verəcəksinizsə, mən hamısına hazıram. Yenə də deyirəm, mən buradan çıxıb, avtomatı çiynimə salıb, gedib dağlarda Naxçıvanı qorumağa hazıram. Buna təcrübəm də var, hələ ki, gücüm də var. "Kommunist Partiyasının süquta uğradığını, seçki komissiyası və məntəqələri üzvlərinin partokratiya nümayəndələrinin sifarişi ilə təyin olunduğunu nəzərə almaqla Azərbaycan Respublikasının Prezidentinin seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsinin dayandırılmasına dair qərar qəbul etmişdir. [20]

Respublika Ali Sovetinin 1991-ci il oktyabrın 9-da Milli Ordu haqqında qanun qəbul etməsinə baxmayaraq, konkret tədbirlər görülmədi. 18 oktyabrda "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan müstəqilliyini bərpa edərək tarixinin yeni mərhələsinin başlanğıcına qədəm qoydu. 29 oktyabr tarixində Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT və dünya dövlətlərinə müraciət edir. Lakin dekabrın sonuna qədərki müddətdə azərbaycanlı əhaliyə qarşı 170 terror, təxribat, hərbi təcavuz aksiyası və digər cinayətlər törədilmişdi. Xocalıdan Yevlaxa uçan "AN-2" təyyarəsi Əsgəran rayonu ərazisində ermənilər tərəfindən vurulmuş, bütün heyət həlak olmuş, təyyarə və meyitlər yandırılmışdı.Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında noyabrın 20-də erməni terrorçuları tərəfindən Mİ-8 tipli mülki vertolyot vurulmuşdur. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən

22 nəfər həlak olmuşdur.Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar noyabrın 26-da sessiyasında Qarabağın muxtariyyət statusu qanuni olaraq ləğv edildi.

Atəşkəs haqqında əldə edilmiş razılığa baxmayaraq, erməni silahlı qüvvələri Qarabağın Xocavənd və Hadrut rayonlarının azərbaycanlı əhalisinə qarşı kütləvi hücumlara 30-a yaxın kənd işğal olunaraq dağıdıldı və yandırıldı. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının (İKT) Dakarda keçirilən dövlət və hökumət başçılarının V konfransında 46-cı tamhüquqlu üzv kimi təşkilata qəbul olunmuşdu, bu isə Ermənistanın təcavüzünə məruz qalmış, ölkənin öz haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm idi. [9 s. 60-62]

Ümumilikdə, amansız ermənilər 1991-ci ildə Xankəndi şəhərinə, Xocavənd rayonunun Qaradağlı kəndinə, Xanlar rayonunun Dozular kəndi yaxınlığında, Ağdam rayonunun Gülablı kəndinə, Əsgəran rayonunun Daşbulaq kəndindən Xocalı şəhərinə, Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin ermənilər, Goranboy rayonunun Zeyvə kəndinin, Füzuli rayonunun, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna, Şuşa, Qazax rayonuna, Hadrut rayonunun Tuğ kənd orta məktəbinə, Ağdərə rayonunun Umudlu kəndinə, Laçın rayonuna, Tərtər rayonunun Qapanlı kəndinə,Ağdərə rayonunun Vaqbaş kəndinə, İmarət-Qərvənd kəndinə, Laçın rayonunun Əriməz yaylağına hücümlar etmiş günahsız insanları öldürmüşlər.

1994-cü il12 yanvar tarixində Heydər Əliyev 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclasında çıxış edərkən deyir:"... Ötən dörd il müddətində Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilməyib. Bilirsiniz ki, mən bu dörd il ərzində burada olmamışam. İndi bu məsələ haqqında fərman hazırlanarkən xahiş etdim ki, Yanvar faciəsi ilə bağlı hansı qərarlar qəbul olunubsa, bu haqda nə kimi işlər görülübsə həmin sənədləri mənə təqdim etsinlər. Mənə Milli Şuranın (indi ona Milli Məclis deyirik) 1992-ci il 19 yanvar tarixli qərarı təqdim edildi. Bu, həmin faciədən iki il sonra qəbul olunmuş qərardır. Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə indiyə qədər siyasi qiymət verilməyib." [11, s.206]

2002-ci il 5 yanvar tarixində 20 yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamından:"XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı, ümumiyyətlə humanizmə və insanlığa qarşı yönəldilmiş dəhşətli cinayət idi. SSRİ-nin başqa regionlarında, o cümlədən Tbilisidə və Baltikyanı ölkələrdə sovet hərb sisteminin törətdiyi qanlı hadisələr müxtəlif səviyyələrdə, o cümlədən SSRİ xalq deputatları qurultayı səviyyəsində müzakirə edilsə də, 20 Yanvar faciəsi zamanı baş vermiş hadisələr şüurlu surətdə təhrif olunur və unutdurulurdu."[4] "Təəssüf ki, xalqın öndə gedən adamları, vəzifədə olanları onun şərəfini, namusunu, mənliyini tapdaladıqları halda, xalq bu dörd ildə buna dözmüşdür. Lakin mən dözə bilmirəm. Bir vətəndaş kimi, mən bu dörd il müddətində bu barədə dəfələrlə səsimi qaldırmışam. O vaxtlar mənim səsimə fikir vermirdilər. Amma indi imkanım var."[5]

Ümummilli lider Heydər Əliyevin tərəfindən Milli Məclisdə 20 faciəsinə qiymət verilməsi, şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə abidə yaradılması qərarı qəbul olunmuş, "Əbədi Məşəl" abidə kompleksinin yaradılması 1994-cü ildə irəli sürülüb. Həmin ilin martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilmişdi. Milli Məclisin həmin qərarından: "Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin".

Ulu Öndər Heydər Əliyev 1995-ci ildə Rüstəm Mustafayev adına, Azərbaycan Dövlət İncəsənət Muzeyində "Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışında çıxışında haqlı olaraq qeyd edirdi: "Xalqımız əsrlər boyu belə mərhələlərdən keçərək bu günə gəlib çatmışdır. Əgər XX əsri götürsək, 1918-ci ildə, 1920-ci ildə Azərbaycan xalqının başına gələn bəlalar, faciələr məlumdur. 1937-1938-ci illərin faciələri də məlumdur. Ancaq 1990-cı ilin yanvarında, əsrimizin sonuna yaxın baş vermiş hadisələr əvvəlkilərin heç biri ilə müqayisə oluna bilməz. Çünki bu dövr Azərbaycan xalqının artıq milli oyanış, öz mənliyini sübut etmək, milli azadlıq hisslərini aşkara çıxarmaq, büruzə vermək mərhələsi idi". [13, s.68] Heydər Əliyev hər cür vasitələrlə millətinin dərdinə şərik oldu, millət də öz liderinin arxasında durdu, inandı.

1995-ci aprelin 27-də İstanbulda Mixail Qorbaçov Qara Yanvarla bağlı bunu demişdir: Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımın ən böyük səhvi idi. [8] Heydər Əliyev belə bir müdrik fikri dəfələrlə təkrarlamışdı: "Həyatda elə şeylər var ki, heç vaxt onları satmaq, başqalarına peşkəş etmək olmaz. Bunlar Vətən, xalqın mənafeyi və təmiz vicdanıdır". [19, s.162]

Ümummilli liderin 1996-ci il20 yanvar günü respublika sarayindaqanlı yanvar faciəsi şəhidlərinin xatirə gecəsində çıxışı: "Xalqımız öz müstəqilliyini qoruyub saxlayacaqdır. Buna əmin ola bilərsiniz. Müstəqil Azərbaycan günü-gündən inkişaf edəcək, ancaq bu günlər heç vaxt unudulmayacaqdır. Heç vaxt unudulmayacaqdır. Gələcək nəsillər bu günləri daim yad edəcəklər. Mən buna əminəm. Bizim borcumuz şəhidlərin ruhuna sadiq olmaqdır. Bizim borcumuz əcdadlarımızın vəsiyyətinə sadiq olmaqdır – milli azadlığımızı qorumaq, dövlət müstəqilliyimizi qoruyub saxlamaqdır. Xalqımız heç vaxt sınmayacaqdır. Əmin olun ki, respublikanın prezidenti kimi, bu gün bir daha bəyan edirəm, xalqımızın milli azadlığını qoruyub saxlamaq, dövlət müstəqilliyini qorumaq və inkişaf etdirmək mənim müqəddəs vəzifəmdir." [10, s. 147].

1998-ci il martın 31-də ümummilli lider Heydər Əliyev tərəfindən 1990-cı ilin yanvarında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında fərman verildi. Heydər Əliyev söyləmişdi: "Azərbaycan xalqı hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, Vətənin müstəqilliyini qorumaq üçün şəhid olmaq əzmini bütün dünyaya nümayiş etdirmişdir. Azadlıq yolunda özünü qurban vermiş şəhidlərimizin fədakarlığı xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün qəhrəmanlıq məktəbi olacaqdır." [12, s.59]

"Əbədi Məşəl" abidə kompleksinin 9 oktyabr 1998-ci il tarixində açılışı olmuşdur. Şəhidlər xiyabanı ərazisində yer almış bu abidə 8 guşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir. Bu abidə əslində Lider-millət vəhdətinin bir göstəricisi oldu. Rusiyanın NTV kanalına müsahibələrindən birində o deyir: "Haqq- ədalətin bərpa olunması naminə və Rusiya ilə Azərbaycan arasında, Rusiya xalqı ilə Azərbaycan xalqı arasında mehriban, dostluq münasibətlərinin inkişaf etməsi naminə demokratik Rusiya buna qiymət verməlidir. Məsələn, mən belə hesab edirəm, əgər Rusiya hökuməti, Rusiya özünü Sovetlər İttifaqının hüquqi varisi elan edibsə, onda təbii ki, Sovetlər İttifaqının beynəlxalq aləmdə istifadə etdiyi imkanların hamısından istifadə etməlidir. Bununla bərabər, sovet rəhbərliyi tərəfindən törədilmiş mənfi, rüsvayçı, cinayətkar əməllər barəsində Rusiya öz mövqeyini aydınlaşdırmalı və müəyyənləşdirməlidir. Bu iş isə heç də çoxdan deyil, 1990-cı ildə baş vermişdir. Odur ki, bu fürsətdən istifadə edərək, Rusiya ictimaiyyəti üçün bəyan edirəm və Rusiya rəhbərliyinə üz tuturam ki, onlar 1990-cı ildə sovet rəhbərliyi tərəfindən törədilmiş cinayətə görə peşmançılıq çəkmək, belə bir cinayətə yol verildiyini etiraf etmək səviyyəsinə qalxmaq üçün nə etmək lazım olması barədə hər halda düşünsünlər. [7]

Müstəqilliyin itirilməsi, dövlətin məhvolma təhlükəsi real xarakter almışdı. Azərbaycanın dövlət müstəqilliyi artıq "olum, ya ölüm" dilenması qarşısında idi.[24, s.531]Həmin ildə ermənilər azərbaycanlılara vəhşişəcəsinə saysız hesabsız silahlı hücumlar etmişlər. Ermənilərin hücümu nəticəsində Gədəbəy rayonunda 6 nəfər qətlə yetirilmiş, Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sədərək qəsəbəsində5 yaşayış evi dağıdılmış, 6 nəfər qətlə yetirilmiş,Yevlax-Laçın yolunun 105-ci kilometrliyində Şuşa-Bakı sərnişin avtobusunun partladılması nəticəsində 6 nəfər həlak ol-

muş, Qazax rayonunun Bağanıs-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 13 yaşayış evi partladılmış, 2 nəfər Xocavənd rayonunun Qaradağlı kənd sakini Vərəndəli fermasında qətlə yetirilmiş, Qazax rayonunda 1 nəfər, Bağanis- Ayrım kəndində isə bir ailənin 5 nəfər üzvü vəhşicəsinə öldürülmüş, Tərtərdən Kəlbəcərə hərbçilərin müşayiəti ilə gedən maşın karvanına erməni terrorçularının silahlı hücumu nəticəsində 14 nəfər həlak olmuş, "Şamxor-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF nömrəli və Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobuslarınpartladılmaları nəticəsindəxeyli sayda insan vəfat etmişdir.

1991-ci ildə Ermənilər tərəfindən Şuşanın Xankəndindən keçən telefon-rabitə xətləri kəsilmiş, Xocalı və Şuşa mühasirə vəziyyətinə düşmüş,Qaradağlı kəndində 3 nəfər kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırılmış, 2 nəfərin isə başını kəsmiş, Ordubad rayonunun Qaranquş adlanan ərazisində 2 şəxs, Ağdərə rayonunun İmarət-Qərvənd kəndində 6 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmiş, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində 34 nəfər həlak olmuş, 4 nəfər itkin düşmüş, 150 nəfərdən artıq dinc sakin yaralanmış və bu işğal hücumu nəticəsində Xankəndi şəhəri bütünlüklə zəbt olunmuş, Meşəli kəndində ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı əsil soyqırımı törədilmiş, Şuşa rayonunun Malıbəyli, Kosalar, Qeybalı kəndlərində 16 nəfər sakin qətlə yetirilmiş, Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın partladılmış, Əsgəran rayonunun Cəmilli kəndində 15 nəfər, Meşəli kəndində hücum nəticəsində 27 nəfər qəddarlıqla öldürülmüş, 12 nəfər – qadın, uşaq, qoca diri-diri yandırılmış, Tuğ və Salakətin kəndlərin işğal nəticəvində 230-dan artıq evi və ictimai binanı yandıran ermənilər azərbaycanlı əhalini təcavüzə məruz qoymuşdur [9, s. 51].

**Nəticə**

20 Yanvar hadisələri nəyi təsdiqlədi?

- Totalitarizm və qanlı terror aktları bir-birindən ayrılmazdır, biri digərini tamamlayır.
- Hər hansı xalqa, o cümlədən Azərbaycan xalqına münasibətdə törədilən cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı cinayət deməkdir. Belə bir cinayət son dərəcə dəhşətli əməldir, lakin cinayəti törədənlərin cəzalandırılmaması ondan da dəhşətlidir.
- 20 Yanvar hadisələri göstərdi ki, xalqımız siyai-hərbi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqdir, ən ağır sınaqlardan çıxa bilir, hətta şəhid vermək əzmindədir.

Şəhidlik zirvəsinə yüksəlmiş Vətən övladları özlərinin fədakarlığı ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifələr yazmağı bacardılar. Azərbaycanın milli qəhrəmanları və vətənimizin azadlığı uğrunda Şəhidlərin ailə üzvləri ilə görüşdə Heydər Əliyev söyləmişdir: "Əminəm ki, Milli qəhrəmanlarımızın, şəhidlərimizin həyat nümunəsi indi ordu sıralarında xidmət etməkdən boyun qaçıranlar üçün və onların valideynləri üçün bir tərəfdən örnək olmalı, digər tərəfdən onlar özləri üçün nəticə çıxarmalıdırlar. Burada şəhidlərin, qəhrəmanların ata anaları çıxış etdilər. Onların sözləri hər bir vətəndaşın ürəyində, şəxsən mənim qəlbimdə böyük həyəcan hissi, dərin ehtiram, hörmət hissi doğurur. Həm şəhid olanlar, həm də onların valideynləri nə qədər pak, nə qədər vicdanlı insanlardır! Əsrlər boyu Azərbaycanı məhz belə insanlar, belə oğullar qoruyub saxlayıb, yaşadıb və bu günə gətirib çıxarıblar. Məhz belə insanlar Azərbaycanı bu bəladan qurtaracaq, Vətənimizin yüksəlişini təmin edəcək, Azərbaycanı xoşbəxt gələcəyə aparacaqlar".[10, s.193]"Biz 20 Yanvar hadisələrinə faciə kimi baxırıq. Doğrudur, faciədir. Ancaq bu faciənin səbəbi nədir? Səbəbi bir tərəfdən odur ki, Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizəyə qalxmışdır. Bu, çox böyük, tarixi bir hadisədir. Azərbaycan xalqında milli ruh yüksəlmiş, milli oyanış, dirçəliş hissləri baş qaldırmışdır. Ayrı-ayrı mütəfəkkir adamlarımızın qəlbində illərlə yaşayan bu hisslər artıq üzə çıxmış, özünü büruzə vermiş, aşkar olmuş, ayrı-ayrı qrupların deyil, bütün xalqın iradəsinə çevrilmişdir". [26]

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün də mühüm işlər görmüşdür. Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli

"20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərmanına əsasən, şəhid ailələrinə dövlət qayğısını artırmaq məqsədilə təqaüd verilir.

Prezident İlham Əliyev bir daha vurğulayıb ki, bu qanlı faciə, Sovet İttifaqı zamanında dinc əhaliyə qarşı törədilən ən amansız qanlı cinayət idi: "O vaxtadək Sovet ordusu dinc əhaliyə qarşı heç vaxt bu qədər qəddarlıqla, vəhşiliklə cəlb edilməmişdi. Yüzlərlə insan həlak oldu, itkin düşdü, yaralandı. Bu cinayəti törədənlər Sovet İttifaqının o vaxtkı rəhbərliyi və Azərbaycanın o vaxtkı yerli rəhbərliyi idi. Ancaq dərd orasındadır ki, faciə günündən keçən 3-4 il ərzində Azərbaycanda heç kim, heç bir vəzifəli şəxs, heç bir dövlət qurumu bu faciəyə siyasi qiymət verməmişdi. Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun təşəbbüsü ilə Milli Məclis siyasi qərar qəbul etdi, cinayətkarları öz adları ilə adlandırdı və ədaləti bərpa etdi".

Şübhəsiz, 20 Yanvar tarixdə bir faciə, dəhşətli bir terror aktı kimi qaldı. Amma bununla bərabər, Prezident İlham Əliyevin də vurğuladığı kimi, 20 Yanvar günü həm də Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Həmin məşəqqətli gündə bütün hədələrə, təhdidlərə, ölümlə üz-üzə dayanmasına baxmayaraq, xalqımız, müstəqillik, azadlıq uğrunda lazım gələndə şəhid ola biləcəyini də göstərdi. Elə buna görə də, 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək, şəhidlərimizin əziz ruhu daim anılacaq, onların əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.[26]]

Cənab prezident İlham Əliyev tərəfindən sərəncama əsasən, 2010-cu ildə Bakının Yasamal rayonununda "20 Yanvar abidə-kompleksi"-nin açılışı olmuşdu. Kompleksin üzərində faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub. Azərbaycan Respublikası cənab İlham Əliyevin gəlişi ilə millət daha bir yeni mərhələyə qədəm qoydu – qələbəyə doğru. 44 günlük Vətən müharibəsində qələbənin əldə olunması müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu strategiyasının nəticəsidir və Azərbaycanın azad edilmiş torpaqlarına bundan sonra həyat qayıdacaq.

## ƏDƏBİYYAT


1. Abdullazadə F. Heydər Əliyev siyasi Portret "XXI" nəşriyyatı, 1998,s.62
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası// 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda Heydər Əliyevin çıxışı (21 yanvar 1990-cı il)
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasi// Heydər Əliyevin Azərbaycan KP MK, Respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqramı (21 yanvar 1990-cı il) (21 yanvar 1990-cı il)
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasi// 20 Yanvar faciəsinin on ikinci ildönümünün keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (5 yanvar 2002)
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasi// Heydər Əliyevin 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üzrə dövlət komissiyasının iclasında çıxışı (12 yanvar 1994)
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası/ Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi.- Bakı, 2005, s.61 //https://files.preslib.az/site/karabakh/gl1.pdf
7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiyanın NTV telekanalının müxbirinə Azərbaycanda 9-cu ildönümü qeyd olunan faciə barədə müsahibəsi – Ankara, Gülhanə Tibb Akademiyası, 20 yanvar 1999-cu il //https://lib.aliyevheritage.org/az/6019688.html
8. Davies, Norman (2017). Beneath Another Sky: A Global Journey into History. Penguin UK.
9. Əhmədov Ə.İ. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. 2015.

10. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: beşinci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Noyabr, 1996 – mart 1996. . Bakı: Azərnəşr, 2005
11. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: birinci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Iyun, 1993– may 1994. . Bakı: Azərnəşr, 1997
12. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: on beşinci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Mart, 1998 – iyun 1998. . Bakı: Azərnəşr, 2005
13. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: üçüncü kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 – iyun 1995. Bakı: Azərnəşr, 1997, s.68
14. Heydər Əliyev Müasir Azərbaycan Parlamentinin Banisidir. Azərbaycan Respublikası Milli Məclisinin Nəşri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları və Milli Məclisdə çıxışları. Tərtibçi və müəəliflər: Səfa Mirzəyev, M.Qayıbov. Bakı-2008.
15. Heydər Əliyev və Mətbuat I cild (dörd clddə) B.; "Nurlar" Nəşriyyat-PoliqrafiyaMərkəzi, 2003, s.31
16. Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013.
17. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab iyun, 1993 – may, 1994, B., Azərnəşr, 1997 .s.193
18. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Elmira Axundova.Kreml beşilliyi. Bakı, "Ozan",2009, s.749
19. Heydər Əliyevin Elmi İrsi. (nəzəriyyə və təcrübə) I cild. "Şərq-Qərb" Bakı-2013, s.162
20. Həbibbəyli İ. Böyük Qayıdışdan Milli Qurtuluşa və müasir inkişafa // "Azərbaycan" qəzeti, 4 sentyabr 2019-cu il
21. https://az.wikipedia.org/wiki/Qara_Yanvar#cite_note-sputnik-8
22. Los Angeles Times qəzeti, 23 yanvar 1990-cı il.
23. Mehdiyev R.Ə. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I cild "Şərq-Qərb", Bakı: "XXI- Yeni Nəşrlər Evi", 2006, s.531
24. Mehdiyev R. Azərbaycan-2003-2008: Zaman Haqqında Düşünərkən. Bakı "Şərq-Qərb", 2009
25. Məlikli G. 20 Yanvar faciəsi Azərbaycan tarixinə qanlı hərflərlə yazılıb. "Yeni Azərbaycan" qəzeti , 20 yanvar 2011-ci il.
26. Məlikli G. 20 yanvar faciəsi tariximizin qəhrəmanlıq səhifəsidir http://philosophy.edu.az/index.php?newsid=1034
27. Məlikli G. Heydər Əliyev – müstəqil Azərbaycanın qurucusu. "Səs" qəzeti, 3 oktyabr 2012-ci i
28. Moskva şəhər Təhlükəsizlik xidmətinin zabiti M.İ.Bezrukovun "Azadlıq" radiosuna verdiyi müsahibədən. 1990-cı il, 21 yanvar
29. Smirnov Q. "Mənim çap olunmayanaraşdırmaların…".M.,1993


## *РЕЗЮМЕ*

***Гюнель МАЛИКЛИ***

### *Трагедия 20 января - путь освободительной борьбы к независимости*

***Ключевые слова:*** *трагедия 20 января, проблема Нагорного Карабаха, Ходжалинская резня, территориальная целостность*

В ответ на выбор азербайджанского народа пути независимого развития руководство СССР решило показать мощь империи, продемонстрировать ее возможности. В ночь на 20 января 1990 года оккупация Баку была проведена с особой жестокостью и беспрецедентным зверством. В результате этой кровавой акции в Баку и регионах республики погиб 131 человек, 744 были ранены и 841 человек были арестованы. Географически первый инцидент произошел в центре, а второй – в Карабахе. Цель была та же: сломить доверие и волю

азербайджанского народа, унизить его национальную идентичность, продемонстрировать мощь советской военной машины. В конце XX века, решительно и настойчиво продвигаясь к обретению и укреплению независимости Азербайджанская Республикадостигла свою священную цель – независимость и сумела сохранить и укрепить ее, повысила свой престиж и доказалавесомость своих слов и делво всем мире.


### *SUMMARY*


**_Gunel MALIKLI_**


**_The tragedy of January 20 - the path of the freedom struggle to independence_**


***Keywords:*** *the tragedy of January 20, the problem of Nagorno-Karabakh, the Khojaly massacre, territorial integrity*


In response to the Azerbaijani people’sdesire for independence, the leadership of the USSR decided to show the power of the empire, to demonstrate its capabilities. On January 20, 1990, at night, the occupation of Baku was carried out with particular cruelty and unprecedented brutality. As a result of this bloody action in Baku and regions of the republic, 131 people were killed, 744 were injured and 841 people were arrested. Geographically, the first incident took place in the center, and the second in Karabakh. The goal was the same: to break the trust and will of the Azerbaijani people, to humiliate their national identity, to demonstrate the power of the Soviet military machine. At the end of the twentieth century, decisively and persistently moving towards gaining and strengthening independence, the Republic of Azerbaijan achieved its sacred goal – independence and managed to preserve and strengthen it, increased its prestige and proved the weight of its words and deeds throughout the world.